Azərbaycan.- 2020.- 20 dekabr. S. 7.

# Sən Azadlığa, biz Zəfərə qovuşduq, Qarabağ!

**Gözün aydın, Qarabağ, qəzan mübarək, Vətən! Sən azadlığa qovuşdun, Qarabağ! Vətənimiz bütövləşdi. Biz isə təşnəsi olduğumuz parlaq bir zəfərə yetişdik. 30 ildən bəri bu günü gözləyirdi ulu millətim.**

Mənfur düşmənlərimizin, nankor qonşularımızın qan qoxulu xəyanətləri ilə doğma yurdundan, isti ocağından pərik salınaraq öz vətənində məcburi köçkünə çevrilib ağır məşəqqətlərə qatlaşan, çadırlarda, vaqonlarda cəhənnəm əzabı yaşayan soydaşlarımızın böyük qayıdışa olan ümidi heç zaman sozalmadı, öləzimədi.

Yaman günün ömrü az olar deyib babalarımız. Amma bizim yaman günümüzün ömrü çox uzun oldu, aylar illərə calandı, qələbə sorağıyla gözlər yollara dikildi, qulaqlar xoş bir xəbərə tamarzı qaldı...

30 ildir bu günə yol gəlirdik. Gözümüzdəki intiqam hissi hər an ildırım kimi çaxmağa, düyünlənmiş dəmir yumruğumuz düşmənin başına endirilməyə hər an hazır vəziyyətdə idi.

Qələbələrlə müşayiət olunan 44 günlük bu zəfər yolunun son dayanacağı bayram libaslı Bakımızın Azadlıq meydanı oldu! Bu tarixi məkan bəlkə də yaranışından üzü bəri heç vaxt belə möhtəşəm olmamışdı.

Müzəffər Ali Baş Komandanın əmri ilə Qarabağ uğrunda müqəddəs savaşa atılan Azərbaycan əsgəri bütün dünyanı heyran qoyan şanlı bir tarix yazdı. Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunan 44 günlük Vətən müharibəsinin hər anı, hər saatı gerçək bir qəhrəmanlıq səhifəsidir.

*Neçə oğlun can verib uğrunda qurban oldu,*
*Şəhid qanı tökülən torpaq gülüstan oldu,*
*Qazandığın qələbə dillərdə dastan oldu.*
*Sən mənə candan əziz sevgili cansan, Qarabağ!*
*Doğmadan doğma olan Azərbaycansan, Qarabağ!*

Həmin gün bütün dünyanın nəzəri Bakıya dikilmişdi. Qalib ordumuzun QƏLƏBƏ paradını bütün qitələrin yüz milyonlarla insanı izlədi. Təbii ki, gördükləri möhtəşəm mənzərə, qəhrəman əsgər və zabitlərimizin nümunəvi hərbi keçidi, müasir döyüş texnikalarının nümayişi, hərbi təyyarə və helikopterlərin bayram uçuşları dost ölkələrin vətəndaşlarını da qürurlandırdı. Erməni separatizmini dəstəkləyənlərin, işğalçıya arxa duranların isə heç şübhəsiz ürəklərindən qara qanlar axdı.

Qələbə sevincini yaşamaq nə böyük xoşbəxtlikdir, ilahi! Vətən sevdalı insanların ürəyindən keçən duyğuları sözlə tərənnüm etmək mümkün deyil. Sadəcə elə-obaya qarışıb o hissləri yaşamaq, Qələbənin dadını çıxarmaq lazımdır.

Milyonların oxuduğu bir nəğmənin nəqarəti QƏLƏBƏ!

Yurd həsrətli, buz nisgilli ürəklərin hərarəti QƏLƏBƏ!

Son baharda çiçək açan güllərimin təravəti QƏLƏBƏ!

Yaşa, Ali Baş Komandan! Var ol, qəhrəman Əsgər! Sevin, Azərbaycanım, sənə şadlıq yaraşır!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***